# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ GƏNCƏ GÖMRÜK İDARƏSİNİN İCTİMAİ ŞURASININ İCLASININ

## PROTOKOLU

**№ 158/023**

Gəncə şəhəri

20 may 2017-ci il

Sədrlik etdi: Gəncə Gömrük İdarəsinin rəis müavini, İctimai Şuranın sədri Aqil Babayev

İştirak etdi: Gəncə Gömrük İdarəsinin İctimai Şurasının üzvləri, idarənin şəxsi heyəti, xarici-iqtisadi fəaliyyət iştirakçıları, sahibkarlar

**Gündəlik:**

1. «İnsan hüquqları aylığı» çərçivəsində insan hüquqlarını, hüquq bərabərliyi üzərində qurulmuş dəyərlərinin təbliği, bu sahədə problemlərin öyrənilməsi.
2. Gəncə Gömrük İdarəsinin xarici-iqtisadi fəaliyyət iştirakçıları, biznes subyektləri arasında şəffaf əməkdaşlığın inkişafı, yaranan problemlər.

**Eşidildi:**

1. Rauf Rzayev
2. Aqil Babayev
3. Əli Eminbəyli
4. Süleyman Mustafayev
5. Yaşar Məmmədzadə
6. Hacı Hacıyev

**Çıxış etdilər:**

**Rauf Rzayev – idarə rəisi**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin «Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında Əsasnamə»nin təsdiq edilməsi haqqında» 21 noyabr 2016-cı il tarixli 100/197 nömrəli Sərəncamının və sərəncamla təsdiq edilmiş Əsasnaməni rəhbər tutaraq, Gəncə Gömrük İdarəsi ilə xarici-iqtisadi fəaliyyət iştirakçıları, biznes subyektləri arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə idarənin 25 noyabr 2016-cı il tarixli 158/024 nömrəli Əmri ilə İctimai Şura yaradılmışdır.

İctimai Şuranın sədri idarənin rəis müavini Aqil Babayevdir. Şura yük şöbəsinin rəisi Rasim Novruzov, maliyyə-tarif şöbəsinin rəisi Süleyman Mustafayev, yük şöbəsinin inspektoru Hüseyn Hüseynov, idarənin fəaliyyət zonasında yerləşən «Neon» firmasının direktor müavini Hacı Hacıyev, «Det-Al Alüminium» Məhdud Məsuliyyətli Cəmiyyətinin logistika departamentinin baş mütəxəssisi Yaşar Məmmədzadə, «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin gömrük işləri üzrə əlaqələndiricisi Vüqar Əhədli kimi üzvlərindən ibarətdir. Şuranın katibi idərənin ümumi şöbəsinin rəisi Əli Eminbəyli təyin olunmuşdur.

Gəncə Gömrük İdarəsinin İctimai Şurasının fəaliyyətinin əsas istiqaməti idarənin xarici-iqtisadi fəaliyyət iştirakçıları, biznes subyektləri, maliyyə nəzarəti və digər nəzarət orqanları arasında sıx əməkdaşlığın inkişaf olunmasıdır.

Şura fəaliyyətində «Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında Əsasnamə»ni rəhbər tutaraq, Əsasnamənin müddəalarından irəli gələn məsələləri həll edərək, fəaliyyətinin əsas istiqamətlərini təyin edilməsini, tənzimlənməsini, Gəncə Gömrük İdarəsinin xarici-iqtisadi fəaliyyət iştirakçıları, biznes subyektləri, maliyyə nəzarəti və digər nəzarət orqanları arasında sıx əməkdaşlığın inkişaf olunmasını, şuranın təşkilati, nizamlayıcı tədbirlərinin hazırlanması və həyata keçirilməsini təmin edir, iclaslarının protokollaşdırılmasını, sənədləşdirilmə, kargüzarlıq, inzibati və texniki işlərinin aparır. Gəncə Gömrük İdarəsinin İctimai Şurası öz işini Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin İctimai Şurası ilə istiqamətləndirir.

Bu gün gömrük xidməti ilə biznes subyektləri arasında əməkdaşlığın genişləndirilməsi məqsədi ilə İctimai Şura xarici-iqtisadi fəaliyyətlə məşğul olan sahibkarlıq subyektləri ilə növbəti görüşünü keçirir. Tədbirdə gömrük əməkdaşları ilə xarici iqtisadi əlaqə iştirakçıları olan sahibkarlıq subyektləri, özəl və dövlət müəssisələrinin nümayəndələri, gömrük əməkdaşları iştirak edir.

Görüş sahibkarların, xarici iqtisadi fəaliyyət iştirakçıları, biznes subyektlərinin problemlərinin dinlənilməsi, onların həllinəköməklik göstərilməsi, qarşılıqlı münasibətlərin daha da dərinləşməsi baxımından mühüm əhəmiyyət daşıdıyır. Özəl bölmənin inkişafına diqqət və dəstək

dövlətimizin iqtisadi siyasətində prioritet istiqamətlərdən biri olduğunu qeyd edib.

**Aqil Babayev – idarənin rəis müavini, İctimai Şuranın sədri**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 12 may 2017-ci il tarixli 100-18/18-25/006438 nömrəli məktubu ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili-Ombudsman Elmira Süleymanova 08 may 2017-ci il tarixli 1/6572-17 nömrəli müraciətlə Dövlət Gömrük Komitəsi qarşısında qaldırılan məsələnin yerli qurumlarda icrası tapşırılmışdır.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə iyunun 18-i ölkədə «İnsan hüquqları günü» kimi qeyd olunur və bu il həmin Sərəncamın imzalanmasının 10 ili tamam olur.

Əlamətdar tarixi nəzərə alaraq, ötən dövrdəki fəaliyyəti bir daha nəzərdən keçirmək, edilən nailiyyətləri, qarşıda duran məsələləri, onların aradan qaldırılması üzrə tədbirləri müəyyənləşdirmək məqsədi ilə Müvəkkilin təşəbbüsü ilə mayın 18-dən iyunun 18-dək respublikamızda «İnsan hüquqları aylığı» elan olunmuşdur.

Ay ərzində dövlət qurumları, qeyri hökümət təşkilatları və kütləvi informasiya vasitələri, icmalar və beynəlxalq təşkilatlar tərəfindən insan hüquqları sahəsində səmərəli əməkdaşlığın davamı olaraq, ölkə Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nın müddəaları əsasında respublikanın bütün şəhər və rayonlarında insan hüquqları ilə bağlı silsilə tədbirlər və müzakirələr təşkil edilmişdir.

«İnsan hüquqları aylığı» çərçivəsində Gəncə Gömrük İdarəsi tərəfindən əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını, hüquq bərabərliyi üzərində qurulmuş multikulturalizm dəyərlərini təbliğ edən, bu sahədə problemlərin öyrənilməsi mövzusunda bu iclas təşkil olunmuşdur.

**Əli Eminbəyli – ümumi şöbənin rəisi, İctimai Şuranın katibi**

Ölkəmiz insan hüquq və əsas azadlıqlarının qorunmasına təminat kimi demokratik idarəetmə və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsini alternativsiz yol kimi seçmişdir. Demokratik, hüquqi dövlətin qanunun aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsaslarının möhkəmləndirilməsi Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Bu istiqamətdə növbəti

addımlardan biri də ölkə Prezidenti tərəfindən 27 dekabr 2011-ci il tarixdə «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nın qəbul olunmasıdır. Proqramın ayrı-ayrı müddəalarının təhlilinə keçmədən öncə istərdim ki, müasir cəmiyyətimizdə beynəlxalq səviyyədə insan hüquqlarının təminatı məsələlərinə, ölkəmizin bu sahədə inkişaf yoluna nəzər yetirək.

İyirminci əsrin ortalarından insan hüquqlarının beynəlxalq səviyyədə inkişafı və təşviqi mərhələsi başlamışdır. 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, habelə sonrakı dövrlərdə «Mülki və Siyasi hüquqlar haqqında» və «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» 1966-cı il tarixli Beynəlxalq Paktları qəbul etmişdir. Bundan əlavə 1976-cı ildə «Mülki və siyasi hüquqlar haqqında» Pakta dair Birinci Fakültativ Protokol, 1989-cu ildə isə Paktın ölüm cəzasının ləğvinə yönəlmiş İkinci Fakültativ Protokolu qəbul olunmuşdur. Həmin fundamental sənədlər İnsan hüquqları haqqında Beynəlxalq Bill adlanaraq bu sahədə beynəlxalq standartların əsasını təşkil etmişdir.

Azərbaycan Respublikasında 1995-ci ildə ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu və insan hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən ilk milli Konstitusiyamızın qəbul olunması siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zəmin yaratmışdır. 2002-ci və 2009-cu illərdə referendum yolu ilə Konstitusiyaya bir sıra mühüm əlavə və dəyişikliklərin edilməsi tam mütərəqqi xarakter daşımaqla insan və vətəndaş hüquqlarının və azadlıqlarının daha səmərəli qorunmasına, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə yönəlmişdir. Dövlətimizin ali məqsədinə nail olunmasında, müvafiq hüquqi mexanizmlərin yaradılmasında, mükəmməl qanunvericilik bazasının formalaşdırılmasında Azərbaycan Respublikası Prezidentinin 1998-ci il fevralın 22-də imzaladığı «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Fərmanı xüsusi əhəmiyyətlikdir. Həmin dövrdə ulu öndərimiz tərəfindən təsdiq edilmiş «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı» bu sahədə ilk fundamental sənəd olmaqla: qanunvericilik islahatların aparılmasına; demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sisteminin, konstitusiya nəzarətinin, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatın yaradılmasına; hüquq-mühafizə fəaliyyətinin təkmilləşdirilməsinə; qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyətinin genişlənməsinə və digər istiqamətlər üzrə inkişafa təkan vermişdir.

Dövlət Proqramının qəbul olunduğu gün – 18 iyun ölkə başçısının 2007-ci il tarixli Sərəncamına əsasən Azərbaycanda insan hüquqları günü elan edilmişdir. Ölkəmiz tərəfindən təsdiq edilmiş 1950-ci il Avropa Konvensiyasının tələbləri istiqamətində mühüm addımlardan biri kimi «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata

keçirilməsinin tənzimlənməsi haqqında» 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanununun qəbul edilməsidir.

Sonrakı mərhələdə ölkə Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2006-cı il tarixdə imzaladığı "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" bu sahədə Dövlət Proqramının fəlsəfəsini inkişaf etdirmişdir. Milli Fəaliyyət Planı insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

Yeni çağırışların və cəmiyyətimizin inkişafından irəli gələn tələbatların nəzərə alınması baxımından Milli Fəaliyyət Planı ölkəmizin siyasi sahədə milli maraqlarından biri olan insan hüquqlarının təmin olunması üzrə görülən ardıcıl tədbirlərin genişləndirilməsində, hüquq-müdafiə mexanizmlərinin təkmilləşdirilməsində, əhalinin müxtəlif qruplarının, qadın hüquqlarının qorunmasının gücləndirilməsində yeni mərhələnin başlanğıcı olmuşdur. Milli Fəaliyyət Proqramında əhalinin müxtəlif, o cümlədən həssas qruplarına aid olan şəxslərin - qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, qadınlar, uşaqlar, ahıllar, əlillər və başqalarının hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması məqsədilə fəaliyyət istiqamətləri müəyyən olunur. Yoxsulluğun azaldılması, məşğulluğun təmini, qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi və digər sahələrdə artıq qəbul olunmuş müvafiq xüsusi dövlət proqramlarının icrasına Milli Fəaliyyət Proqramı kontekstindən yanaşılır. Proqrama uyğun olaraq dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmini, korrupsiya ilə mübarizənin gücləndirilməsi potensialının artırılması və bu sahədə islahatların həyata keçirilməsi, əhaliyə elektron xidmətlərin göstərilməsinin təşkili, hakimlərin, hüquq-mühafizə orqanları əməkdaşlarının, vəkillərin tədrisində insan hüquqları sahəsinə bağlı mövzuların geniş istifadəsi mühüm istiqamətlər sırasındadır.

Milli Fəaliyyət Proqramının icrasının əlaqələndirilməsinin İnsan hüquqları üzrə müvəkkilin (Ombudsmanın) rəhbərliyi ilə aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət xüsusi işçi qrup tərəfindən həyata keçirilməsi və işi barədə mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumatın təqdim olunması, habelə bu sahədə vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlığın təsbit edilməsi Proqramın işlək sənəd olmasını bir daha nümayiş etdirir. Eyni zamanda Proqramda onun müntəzəm qaydada yeniləşdirilə bilməsi müddəasının əks olunması fəaliyyətinin davamlılığına və səmərəliliyinə imkan yaradır. Proqramda müəyyən edilmiş tədbirlərin yerinə yetirilməsi onun icrasına cavabdeh olan qurumların, vəzifəli şəxslərin məsuliyyət hissinin və tələbkarlığının daha da artırılmasını vacib edir. Dövlət orqanlarının səmərəli fəaliyyəti, qarşıda duran vəzifələrin və funksiyaların uğurla yerinə yetirilməsi, ilk növbədə yüksək ixtisaslı,

müasir dünyagörüşünə malik, ədalətli, prinsipial və bacarıqlı kadrların sayəsində mümkündür. Dövlət məmurları insan hüquqlarının səmərəli və etibarlı təmin olunması kimi ümumdövlət maraqlarını rəhbər tutmağa borcludurlar. Hər bir məmur ilk öncə insan hüquqlarının təmin olunmasının onun ümdə vəzifəsi olduğunu dərk etməlidir. «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı» Ulu Öndərimiz tərəfindən təməli qoyulmuş insan hüquqları sahəsində strategiyanın məntiqi davamı və dövlətin növbəti siyasi iradəsi olmaqla, insan və vətəndaş hüquqlarının hərtərəfli həyata keçirilməsinə, onların icra mexanizmlərinin təkmilləşdirilməsinə real zəmanət verir.

**Süleyman Mustafayev – maliyyə-tarif şöbəsinin rəisi, İctimai Şuranın üzvü**

Məsləhət Şurası qarşıya çıxan problemləri vaxtında həlli üçün idarədə fəaliyyət göstərir. «Bir pəncərə» prinsipinin tətbiqi ilə gömrük prosedurlarının sürətləndirilməsinə nail olunub, mal və nəqliyyat vasitəsinin rəsmiləşdirilməsi prosesi minimuma endirilib. Gömrük Məcəlləsi və onadair hazırlanmış normativ-hüquqi aktlar barədə, sahibkarlığın inkişafı üçün yaratdığı yeni imkanlar, tətbiq olunan vergi,rüsum, ödənişlər, bunlardan azadolmalar barədə ətraflı məlumatlar verdi.

Özəl sektorun fəaliyyətinə hərtərəfli dövlət qayğısı yeni istehsal sahələrinin yaranmasına, əhalinin alıcılıq qabiliyyətinin artmasına, iqtisadiyyatın möhkəmlənməsinə səbəbdir.

Qeyd olunan yeniliklər də insan hüquq və bərabərliyinin təmininə xidmət edən amillərdəndir.

**Yaşar Məmmədzadə – «Det-Al Alüminium» MMC-nin logistika departamentinin baş mütəxəssisi, İctimai Şuranın üzvü**

Biznes subyektləri ilə keçirilən mütamadi görüşlər qarşıya çıxan problemlərin həlli baxımından vacibdir. Bundan əvvəl keçirilən görüşlər bir çox sahələrdə səmərəli nəticələr vermişdir.

Sahibkarlarla görüşlər münasibətlərin dərinləşməsi, qarşıya çıxan problemlərin həlli baxımından əhəmiyyətlidir. «Bir pəncərə» prinsipinin tətbiqindən biznes subyektlərinin fəaliyyətində ortaya çıxan problemlər azalıb. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəsmi saytı iş adamları üçün köməklik edir. Saytda dolğun məlumatlar yerləşdirildiyindən bizim gündəlik işimizdə böyük köməkdir. Bu respublika Prezidenti möhtərəm İlham Əliyev cənablarının, hökümətin xarici iqtisadi fəaliyyətlə məşğul olan sahibkarlıq subyektlərinə, özəl sektora dəstəyin bir nümunələrindəndir.

**Hacı Hacıyev – «Neon» Firmasının direktor müavini, İctimai Şuranın üzvü**

18 iyun - Azərbaycanda Milli İnsan Hüquqları günü kimi qeyd olunur. Prezidentimiz cənab İlham Əliyevin 2007-ci il 17 iyun tarixli Fərmanı ilə Ulu Öndər Heydər Əliyevin 1998-ci ildə ölkəmizdə ilk «İnsan hüquqları müdafiəsinə dair Dövlət Proqramı»nın təsdiq edildiyi və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunduğu nəzərə alınaraq, Azərbaycanda Milli İnsan Hüquqları günü təsis edilib.

Müstəqil Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilən Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquqlarının və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarıb Konstitusiyada əksini tapmış bu strateji məqsəd ilk növbədə hüquq islahatları və insan hüquqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri edib. Respublikamızda həyata keçirilən hüquqi islahatların ən mühüm mərhələlərindən biri insan hüquqlarının və azadlıqlarının müdafiəsində səmərəli hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının yaradılması olub. İnsan hüquqlarının təmin olunmasını ümumdövlət vəzifəsi hesab edən ulu öndər Heydər Əliyevin ilk dəfə insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsi üçün 1998-ci il 22 fevral tarixli «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Fərmanı, 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilən Dövlət Proqramında İnsan Hüquqları üzrə Müvəkkili təsisatının yaradılması nəzərdə tutulub. Ombudsman təsisatının yaradılması hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatların məntiqi davamı idi.

Ötən illərdə Ombudsman Aparatı insan hüquqları üzrə silsilə tədbirlər həyata keçirib, regionlarda da İnsan Hüquqları üzrə Müvəkkilin regional mərkəzləri açılmışdır. Bu mərkəzlər əhalinin ombudsmana müraciət etməsini asanlaşdırıb. Bütün bunlar isə ölkədə insan hüquqlarının qorunmasına, sahibkarlığın inkişafına xidmət edir.

**Aqil Babayev – idarənin rəis müavini, İctimai Şuranın sədri**

Keçirilən görüş sahibkarların, xarici iqtisadi fəaliyyət iştirakçıları, biznes subyektlərinin problemlərinin dinlənilməsi, onların həllinə köməklik göstərilməsi, qarşılıqlı münasibətlərin daha da dərinləşməsi baxımından mühüm əhəmiyyət daşıdıyır. Özəl bölmənin inkişafına diqqət və dəstək dövlətimizin iqtisadi siyasətində prioritet istiqamətlərdən biridir.

Əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması, gömrük orqanları

ilə sahibkarlar arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsi məqsədilə yaradılmış gömrük orqanlarının və biznes qurumlarının nümayəndələrindən ibarət Məsləhət Şurasının fəaliyyətinin daha da genişləndirilməsi sahəsində tədbirlərin həyata keçirilməsi, Dövlət Gömrük Komitəsinin saytında yaradılmış imkanlar vasitəsi ilə rəhbərliklə, İctimai Şuraların vasitəsi ilə idarə rəhbərlikləri ilə görüşlərinin mütəmadi keçirilməsi vacibdir. Xarici iqtisadi fəaliyyətlə məşğul olanlara fəaliyyətlərində şəxsi heyət adından yeni uğurlar diləyirəm.

**Qərara alındı:**

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gəncə Gömruk İdarəsinin Məsləhət Şurasının iclasında olunan çıxışlar nəzərə alınsın.
2. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gəncə Gömruk İdarəsinin İctimai Şurasının iclasında diskussiya zamanı müzakirə edilən məsələlər, qaldırılan problemlər, verilən tövsiyyələr xidmətin aparılmasında nəzərə alınsın.

**İctimai Şuranın sədri:** **Aqil Babayev**

**İctimai Şuranın katibi:** **Əli Eminbəyli**

11-24 işdə
imza